**İlqar Tapdıq oğlu Gülməmmədov**

**UOT:338.1:334;7:339.923; JEL:F43;O4;L16.**

# Sənaye parklarında təşkilati-iqtisadi mexanizmlərin səmərəliliyinin yüksəldilməsi problemləri

***Xülasə***

*Məqalədə sənaye parklarında təşkilati-iqtisadi mexanizmlərin səmərəliliyinin yüksəldilməsi problemləri tədqiq olunmuşdur. Bu məqsədlə, müasir dövrdə sənaye parklarının səmərəlilik problemləri və bununla bağlı məsələlər araşdırılmışdır. Sənaye parklarında tətbiq olunan təşkilati-iqtisadi mexanizmlərin səmərəliliyinin təmin olunmasının vacibliyi əsaslandırılmışdır. İqtisadiyyatın şaxələndirilməsində və rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılmasında sənaye parklarının əhəmiyyəti açıqlanmışdır. Strateji yol xəritələrinin reallaşdırılmasında sənaye parklarının rolu və potensialı, verilmişdir. Milli iqtisadiyyatın artım tempinin təmin olunmasında sənaye parklarında həyata keçirilən tədbirlərin məhsuldarlığının vacibliyi bildirilmişdir. Sənaye parklarında işlək təşkilati-iqtisadi mexanizmlərin hazırlanması və tətbiq olunması məsələlərinə strateji yanaşmaların mütləq şərt kimi baxılması göstərilmişdir. Ölkənin sənaye potensialının gücləndirlməsində sənaye parklarından istifadənin genişləndirilməsi məqsədəuyğun sayılmışdır. İqtisadi artıma innovativ yanaşmaların həyata keçirilməsində sənaye parklarının potensialı araşdırılmışdır. Sənaye parklarının fəaliyyətinin təşkilinə dair konseptual məsələlərin sistemli və kompleks şəkildə baxılması vacib hesab olunmuşdur. Ölkə ÜDM-nin artımına sənaye parklarının təsiri verilmiş və təhlili aparılmışdır. Sənaye məhsulunun artım dinamikasının təmin edilməsində sənaye parklarında yaradılan müəssisələrin rolu və əhəmiyyəti verilmişdir. Yeni sənaye potensialının yaradılmasında sənaye parklarının imkanları açıqlanmışdır. Yaxın perspektivdə sənaye parklarından daha geniş şəkildə istifadə edilməsinin vacibliyi əsaslandırılmışdır. İqtisadiyyatın innovasiyalaşdırılmasında sənaye parklarından istifadənin genişləndirilməsinə diqqət yönəldilmişdir. İqtisadi artımın yeni mənbələrinin formalaşdırılmasında sənaye parklarında təşkilati-iqtisadi səmərəliliyin yüksəldilməsi problemləri və həlli yolları üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər***: *sənaye parkları, təşkilati-iqtisadi mexanizmləri, sənaye parklarının səmərəlilik problemləri, iqtisadiyyatın sənaye potensialının artırılması, iqtisadiyyatın innovatik inkişaf problemləri, təşkilati-iqtisadi mexanizmlərin səmərəlilik problemləri.*



## Giriş

Keçmiş SSRİ-nin süqutundan sonra, ölkəmiz öz müstəqilliyini bərpa etməklə, iqtisadi inkişaf modelinin formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görməyə nail olmuşdur. Sovetlər dövründən miras qalmış idarəetmə mexanizmlərinin yenilənməsi, iqtisadiyyat sahələrinin modernləşdirilməsi, yeni, həm də milli iqtisadi maraqlara cavab verən iqtisadi artım mənbələrinin formalaşdırılması məqsədilə davamlı tədbirlərin hazırlanması və reallaşdırılması diqqət mərkəzində saxlanılmaşdır. 1994-cü il sentyabr ayının 20-də imzalanmış "Əsrin kontraktı"nın reallaşdırılması nəticəsində ölkəmizdə iqtisadi islahatların aparılması, institusional və təşkilati tədbirlərin görülməsi, iqtisadiyyat sahələrinin maddi-texniki bazasının yenilənməsi və müasir texnologiyalar əsasında inkişaf etdirilməsi məsələlərinə daha çox diqqət yönəldilmişdir. İnzibati və mərkəzi idarəetmə dövründən qalan çoxlu sayda iri sənaye müəssisələrinin fəaliyyətinin yenidən bərpası məqsədəuyğun sayılmamış və müasir texnologiylar əsaslı iqtisadiyyat sahələrinin inkişafına

©İlqar Tapdıq oğlu Gülməmmədov Qərbi Kaspi Universiteti, dissertant. E-mail: g.ilqar@gmail.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

önəm verilmişdir. Məsələn, Sumqayıt sənaye mərkəzində sovetlər birliyi dönəmində respublikamızın və ittifaqın iqtisadi artımında, ümumi daxili məhsulunun formalaşdırılmasında əhəmiyyətli rol oynayan iri kimya və metallurgiya müəssisələrinin 70-80 %-i modernizasiya və bərpa edilməmişdir. Əvəzində isə müasir və yüksək texnologiyalar əsaslı yeni müəssisələrin yaradılmasına daha çox üstünlük verilmişdir.

Bu məsələlər ölkə rəhbərliyi səviyyəsində strateji kontekstdə baxılmış və milli iqtisadiyyatın qlobal iqtisadi çağırışlar şəraitində daha dayanıqlı artım mənbələrinin formalaşdırılması, inkişaf etdirilməsi üçün prioritetlər müəyyənləşdirilmiş, dövlət proqramları, strategiyalar, konsepsiyalar hazırlanmış və reallaşdırılmışdır. Başlıca fəaliyyət istiqamətləri kimi müasir texnologiyalara söykənmiş dünya təcrübəsində sınaqdan çıxmış, özünü doğrultmuş məhsuldar səmərəli, innovasiya-investisiya baxımından kifayət qədər cəlbedici olan iqtisadi mexanizmlərə və fəaliyyət sahələrinə diqqətin artırılması götürülmüşdür. Belə ki, ölkədə texnoparklar, sənaye parkları, sənaye məhəllələri və aqroparklar sürətlə yaradılmaqda, inkişaf etdirilməkdədirlər. Bütün bu amillər ölkəmizdə iqtisadi inkişaf proseslərində və iqtisadi artımın səmərəliliyinin yüksəldilməsində yeni mexanizmlərinin tətbiqinə davamlı və məqsədli şəkildə yanaşmanın dövlət siyasətinin prioritet tərkib hissəslərindən birinə çevrilməsini qeyd etməyə imkan verir.

Azərbaycanda iqtisadi inkişaf proseslərinin şaxələndirilməsi və qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi məsələləri əsasən neftin qiymətinin dünya bazarlarında düşməsindən sonra intensiv xarakter almışdır. Belə ki, 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranını mənfi fəsadları, dünya bazarlarında enerjidaşıyıcıların, o cümlədən, qeyd etdiyimiz kimi Azərbaycan üçün strateji önəm kəsb edən neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi, maliyyə qeyri-sabitliyi hallarının çoxalması, milli valyutanın sabitliyinə və kursuna təsir edən xarici və daxili amillərin artması iqtisadiyyatın neftdən asılıllığının əhəmiyyətli dərəcədə azaldılmasının strateji vəzifə kimi qarşıya qoymuşdur. Bu amillər iqtisadiyyatın digər sahələrinin, başqa sözlə, qeyri-neft sektoru sahələrinin inkişafınınlı intensivləşdirilməsini, milli innovasiya sisteminin yaradılması proseslərinin sürətləndirilməsini, müəssisələrinin innovatik inkişaf strategiyalarının hazırlanmasını və reallaşdırılmasını, ölkədə milli innovatik yanaşmaların formalaşdırılmasını, innovasiya fəaliyyəti sahəsində qanunvericilik bazasının gücləndirilməsini, elmi-texniki inkişafının sürətləndirilməsini, elmi-tədqiqat və ali təhsil müəssisələri ilə müxtəlif iqtisadiyyat sahələrinin,əsas etibarı ilə sənaye sektoru sahələrinin inteqrativ inkişafının təmin olunması, elmi-tədqiqatların artırılmasına, yüksək texnologiyalarınını işlənməsinə, tətbiqinə, innovasiyaların yaradılması və istehsal proseslərində innovasiya funksiyaları formasında səmərəli istifadə edilməsi, bir sözlə, ölkədə iqtisadi artıma imkan verən bütün sahələrdə innovativ və səmərəli inkişafın təmin olunması vacib məsələlər kimi qiymətləndirilməlidir.

Ölkə Prezidentinin 29 dekabr 2012-ci il tarıxli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasında innovativ inkişafın genişləndirilməsi, innovasiyaların işlənməsi, istehsalata tətbiqi ilə bağlı parkların və innovasiya zonalarının təşkili prioritet vəzifələr sırasında yer almışdır [2]. Bundan əlavə, yenə ölkə Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nda qeyri-neft sektorunun aparıcı sahələri olan sənaye sahələrinin inkişafının müasir texnologiyalar əsasında sürətləndirilməsi, innovasiyaların tətbiqi hesabına məhsuldarlığın artırılması və iqtisadiyyatın yeni artım mənbələrinin təmin edilməsi istiqamətində prioritet vəzifələr qoyulmuşdur [3]. Eyni zamanda, milli iqtisadiyyatın əsas fəaliyyət istiqamətlərinin əksəriyyəti üzrə strateji hədəflər və mexanizmlər, prioritet vəzifələr, strateji və innovatik yanaşmalar öz əksini 06 dekabr 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nda tapmışdır [14]. Strateji Yol Xəritəsində göstərilir ki, qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın mühüm hərəkətverici qüvvəsi kimi baxılacaqdır.

**Sənaye sahələrinin inkişafının sürətləndirilməsi və sənaye parklarının potensialından istifadə problemləri**

Ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən sənaye sahələrinin inkişafının sürətləndirilməsi məqsədilə yeni mexanizmlərin hazırlanması vacib şərtlərdəndir. Xüsusilə, son illərdə qeyri-neft sənaye sahələrinin innovativ inkişaf məsələlərinə daha geniş yer verilməkdədir. Məsələn, milli iqtisadiyyat sahələrinin, o cümlədən, sənaye sahələrinin innovativ inkişafı ilə bağlı strateji hədəflər və prioritetlər, innovasiyaların daha sistemli və uzunmüddətli dövr üçün yayılması, işlənməsi, tətbiqi məsələləri, İTK-nın inkişafı ilə bağlı istiqamətlər daha çox ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə yer almışdır [5**]**. Milli iqtisadiyyatın innovasiyalaşdırılmasında İKT-nin rolunun artırılması və infrastrukturunun yaradılması bütövlükdə iqtisadi artım üçün yeni mənbələrin formalaşdırılmasına imkan verəcəkdir. İqtisadiyyatın rəqəmsallaşdırılması proseslərinin daha da intensivləşdirilməsi və İKT sənayesinin potensialının artırılması məqsədilə yüksək texnologiyalar əsaslı müəssisələr şəbəkəsinin nəzərdə tutulmuşdur. Artıq bunlarla bağlı sənaye parklarında görülən tədbirlər öz bəhrələlərini verməkdədir və ölkə ÜDM-un tərkibində yüksək texnologiyalar əsaslı sənaye məhsullarının payı, özü də qeyri-neft təmayüllü, həmçinin ixracyönlü rəqabətqabiliyyətli məhsullarının xüsusi çəkisi artmaqdadır. Eyni zamanda, ölkə Prezidentinin 6 dekabr 2016-cı ilin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə də sənaye sektorunun aparıcı sahələri olan – ağır sənaye və maşınqayırma sahələrində innovativ inkişafın sürətləndirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalı hesabına ölkə iqtisadiyyatının strukturunun diversifikasiyalaşdırılması və artım tempinin sabit saxlanılması tədbirləri üzrə hədəflər verilmişdir [4].



Məlumdur ki, 2015-2016-cı illərdə ölkə iqtisadiyaytında artım tempi zəifləmişdi, amma görülən tədbirlər nəticəsində son illərdə ölkə ÜDM-nin artım tempi bərpa olunmuş və nəticədə 2016-2018-ci illərdə iqtisadi artım 32 %-dən çox olmuşdur məsələn, 2018-ci ildə 2017-ci illə müqayisədə iqtisadi artım 13,4 % təşkil etmişdir. Bir çox beynəlxalq təşkilatlar ölkəmizdə iqtisadi artımın intensivləşəcəyi üzrə proqnozlar vermişlər. Dünya Bankının hesabatında göstərilir ki, Azərbaycanda ÜDM-in həcmi 2020-ci ildə 3,3 % səviyyəsində olacaqdır [7]. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, yaxın yaxın illərdə ölkəmizdə iqtisadi artım səviyyəsi 2 % olacaqdır [6]. "Fitch" reytinq kompaniyasının proqnozlarına görə isə, 2019-da ölkə ÜDM-ün artım nümayiş etdirəcəyi və 47,3 mlrd. ABŞ dolları həcmində olacağı gözlənilir [11]. Müasir dövrdə ölkəmizdə makroiqtisadi vəziyyətin sabitləşdirilməsi, iqtisadiyyatın diversifikasiyalaşdırılması, xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafının intensivləşdirilməsi əsas prioritet vəzifələr sırasındadır. Bunlarla bağlı, i.e.d. E.Y.Məmmədov qeyd edir ki, bu gün dövlət büdcəsinin xərclər hissəsi ÜDM-in 25-30 %-ni təşkil edir. Bununla belə, enerjidaşıyıcıların qiymətlərinin yüksəlməsi, həmçinin qeyri-neft təmayüllü iqtisadiyyat sahəsinin inkişaf etdirilməsi üçün güclü potensial mövcuddur. Yəni, dövlət investisiyalarının artırılması üçün potensial böyükdür və yaxın perspektivdə bu istiqamətdə hədəf göstərici 40-45 % ola bilər [8]. Sənaye parkları investisiyaların yatırılması, iqtisadiyyatın diversifikasiyalaşdırılması, xüsusilə, qeyri-neft sektoru sahələrinin, ilk növbədə,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sənaye sahələrinin iqtisadi artımda xüsusi çəkisinin yüksəldilməsi üçün cəlbedici fəaliyyət əraziləri və iqtisadi mexanizmlər kimi olması amilindən yetərincə yararlanmaq yaxın illərdə mühüm əhəmiyyət kəsb edəcəkdir [9]. Sənaye zonalarının yaradılması dövlətin iqtisadi və intellektual potensialın möhkəmləndirilməsi, investisiyaların cəlbi, eləcə də ixracyönümlü istehsalat üçün əsasdır. Sənaye zonalarınını yaradılması və inkişaf innovatik proseslərin inkişaf etdiyi bir prosesl ə gedir. Bu zonalar həm yerli, həm də xarici investorlar üçün kifayət qədər cəlbediciliyi ilə fərqlənir [15].

Azərbaycanda 2014-2018-ci illərdə ümumi sənaye məhsulunun həcmi 49 % yaxın artmış və 2018-ci ilin yekununda 47,7 mlrd. ABŞ dolları təşkil etmişdir. 2018-ci il ərzində ölkə ÜDM-də sənaye məhsulunun həcmi – 60 %-ə yaxın olmuşdur. Sənayenin son illərdə artımında qeyri-neft sənayesinin intensivliyi və yeni yüksək texnologiyalar əsaslı müəssisələrin yaradılması mühüm əhəmiyyət kəsb etmişdir. Sumqayıt Kimya Sənaye Parkında, Sumqayıt Sənaye Mərkəzində və digər şəhərlərdə yaradılan sənaye parklarında yüksək texnologiyalar əsaslı sənaye müəssisələrinin bir-birinin ardınca istismara verilməsi ölkə iqtisadiyyatınını artımında məhsuldar mənbələrin formalaşdırılmasına əlavə imkanlar yaratmışdır [10]. Sənayenin strukturunda emal sənayesinin payı mədənçıxarma sənayesinə nisbətdə daha sürətlə artmaqdadır və 2018-ci ilin yekununda 2017-ci ilə nisbətdə emal sənayesində artım 8 % olduğu halda, mədənçıxarma sənayesində cəmisi 0,2 % təşkil etmişdir.

**Şəkil 1.**

**Azərbaycanda emal sənaye məhsulunun inkişaf dinamikası (mlrd. manat)**




Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.



Şəkil 1-in təhlili üzrə baxarkən görmək olar ki, 2018-ci ildə 2017-ci ilə nisbətdə 920,5 mln. manat dəyərində daha çox məhsul istehsal edilmişdir və artım 9,3 %-ə yaxın olmuşdur. Növbəti illərdə sənaye parklarında yeni istehsal güclərinin formalaşdırılması və istismara verilməsi nəticəsində emal sənayesi məhsullarının çeşidinin və həcminin artacağını proqnozlaşdırmaq mümkündür.

**Azərbaycanda iqtisadi artım problemləri və sənaye parklarından səmərəli istifadə məsələləri**

Ölkəmizdə iqtisadi artım problemləri kifayət qədər aktual olaraq qalmaqdadır və bunlarla əlaqədar olaraq, müxtəlif iqtisadi mexanizmlərin hazırlanaraq dövriyyəyə cəlb edilməsi məsələləri diqqət çəkir. Əvvəldə bildirdiyimiz kimi bu istiqamətlərdən biri də yaradılmış və yaradılmaqda olan sənaye parkları ilə bilavasitə bağlıdır. Strateji yol xəritəsi kontekstində sənaye parklarında iqtisadi artımın səmərəlilik baxımından bir sıra digər iqtisadi göstəricilər öz əksini cədvəl 1-də tapmışdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 1.**

**Azərbaycanda iqtisadi artıma təsir edən əsas göstəricilərin inkişaf dinamikası**

| Göstəricilər | Ölçü vahidi | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| **əsas kapitala yönəldilmiş vəsaitlər** | mlrd. man | 17,6 | 15,96 | 15,77 | 17,4 | 17,24 |
| **əhalinin nominal gəlirləri** | mlrd. man | 39,5 | 41,7 | 45,4 | 49,2 | 53,7 |
| **hər nəfərə düşən nominal gəlirlər** | manat | 4192,4 | 4380,7 | 4710,1 | 5053,2 | 5467,4 |
| **əsas fondlar** | mlrd. man | 0 | 110,7 | 124 | 169,1 | 182,8 |
| **iqtisadi fəal əhalinin sayı** | mln nəfər | 4,8 | 4,9 | 5 | 5,07 | 5,1 |
| **dövlət büdcəsindən elmə çəkilən xərclər, o cümlədən** | mln. manat | 124,1 | 113,2 | 110,2 | 109,8 | 117,8 |
| **ümumi daxili məhsula nisbətən** | faiz | 0,21 | 0,21 | 0,18 | 0,16 | 0,15 |
| **istehlak bazarı** | mlrd. manat | 29,97 | 34,3 | 39,2 | 45,3 | 47,76 |
| **iqtisadiyyata kredit qoyuluşları** | mlrd. manat | 18,5 | 21,7 | 16,4 | 11,8 | 13 |
| **iqtisadiyyata yönəldilən investisiyalar (bütün mənbələr üzrə)** | mlrd. manat | 21,9 | 20,1 | 22,7 | 24,5 | 26 |
| **xarici investisiyalar, o cümlədən** | mlrd. dollar | 11,7 | 10,7 | 10,2 | 9,1 | 8,2 |
| **birbaşa xarici investisiyalar, o cümlədən** | mlrd. dollar | 8 | 7,5 | 7,3 | 5,7 | 4,1 |
| **qeyri-neft sektoruna** | mln. dollar | 1318,5 | 860,4 | 1706,2 | 813 | 967,1 |

Mənbə: cədvəl Azərbaycan rəqəmlərdə, Bakı, 2019, 249 s.-nin əsasında müəllif tərəfindən hazırlanmışdır.



Cədvəl 1-in təhlilindən baxsaq, 2014-2018-ci illər üzrə istehsalın həcminin artımında və yeni iqtisadi artım mənbələrin yaradılmasında əsas kapitala yönəldilmiş vəsaitlərin həcmində demək olar ki, artım müşahidə olunmur. Bundan əlavə, əsas fondların dəyəri 2018-ci ildə 2015-ci ilə nisbətdə 72,1 mlrd. manat yaxud 65,1 % artmışdır. İqtisadi artımda strateji əhəmiyyət kəsb edən yüksək texnologiyaların və innovasiyaların işlənməsində, mənimsənilməsində və tətbiqində ölkədə təhsilin və elmin mövcud səviyyəsinin rolu mühüm əhəmiyyət daşıyır. Bununla belə, 2014-2018-ci illər ərzində dövlət büdcəsindən elmə çəkilən xərclərdə artım qeydə alınmamışdır. İqtisadiyyata kredit qoyuluşları orta illik 18,5 mlrd. manatdan 13 mlrd. manat səviyyəsinə qədər azalmışdır. Hazırda ölkədə mövcud olan sənaye parklarında əsasən kimya və neft kimya kompleksinin istiqamətləri üzrə potensial formalaşdırılmaqdadır. Bu özünü həmin sahə üzrə məhsul istehsalında göstərmişdir, 2014-cü ildə ümumi məhsulun həcmi 370,7 mln. manat təşkil etdiyi halda, 2018-ci ildə bu göstərici 887,8 mln. manat səviyyəsinə qədər yüksəlmişdir və həmin dövr üzrə artım 2,4 dəfəyə yaxın olmuşdur. Analoji artım səmtləri qida sənayesi üçün də xarakterikdir. Belə ki, qeyri-neft sənayesində ümumi məhsulda qida məhsullarının istehsalının xüsusi çəkisi 28,2 % təşkil edir və bu məhsullarının əksəriyyəti Sumqayıtda fəaliyyət göstərən "Azərsun" Sənaye Parkında istehsal olunur.

Sənaye parklarının inkişafının intensivləşdirilməsi, eyni zamanda ölkəmizdə innovatik inkişafın sürətləndirilməsinə müsbət təsir göstərməkdədir. Amma, bunun üçün mövcud təşkilati-iqtisadi mexanizmlərin səmərəliliyinin yüksəldilməsi təmin olunmalıdır və innovasiyaların hazırlanması, tətbiqində sənaye parklarının potensialından səmərəli istifadəyə diqqət artırılmalıdır. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun hazırladığı "İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər" adlı kitabda göstərilir ki, Azərbaycanda sənaye parklarının yaradılmasının daha geniş vüsət alacağı gözlənilir, belə parkların yaradılması isə xaricdən müvafiq məhsul idxalının azalmasında da mühüm rol oynamaq iqtidarındadır. Sənaye parklarının yaradılmasına başlanması bəzi parametrlər

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

baxımından mühüm önəm kəsb edir, belə ki xarici ölkələrin təcrübələrindən yanaşsaq, sənaye parkları sahibkarlığı dəstələmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək imkanına sahibdir. Sənaye parkları həm də qeyri-neft sahəsinin sürətli inkişafını şərtləndirəcək, rəsmi proqnozlara görə qeyri-neft sektorunun ÜDM-də və büdcə gəlirlərində payı, həmçinin iqtisadi artımda payı əhəmiyyətli səviyyədə artmaqda davam edəcəkdir [12]. Sənaye parklarında yeni texnologiyaların mənimsənilməsi imkanları artdıqca, iqtisadi artımın daha məhsuldar mənbələrinin formalaşması mümkün olur, innovasiyalar daha tez istehsal proseslərinə tətbiq edilir.

Milli iqtisadiyyatın inkişaf mexanizmlərinin təkmilləşdirilməsində, təşkilati-iqtisadi mexanzimlərin daha məhsuldar şəkildə hazırlanmasında innovatik yanaşmalar önəmli rol oynayır. İqtisadiyyatını innovasiyaya əsaslanaraq inkişaf etdirmək istəyən dövlətlər bu məqsədə yönəlik sənayeləşmə siyasəti həyata keçirməlidirlər. Burada əsas məqsəd sənayedə innovasiyanın tətbiqini və innovativ sənaye məhsullarının istehsalını artırmaqdır. Çünki, bu gün Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa gedən yol əsas olaraq sənayeləşmədən keçir. Sənayeləşmə siyasətinin özü də innovasiyaların iqtisadiyyatda təqidi və yaradılan əlavə dəyərin təsiri ilə dəyişikliklərə məruz qalaraq zamanla yenilənməyə məcburdu. Yəni, innovasiya əsaslı iqtisadiyyata sahib olmaq istəyən dövlət davamlı olaraq innovasiyaları təqib etməli, başqa dövlətlərin təcrübələrini öyrənməli və innovasiyaların iqtisadiyyatda tətbiqinə münbit şərait yaratmalıdır [13]. Dövlət sənaye parkları vasitəsi ilə özünün innovasiya siyasətini təkmilləşdirə, iqtisadiyyatın innovasiyalaşdırılmasında, innovasiyayönlü məhsulların istehsalı hesabına iqtisadi artımın məhsuldar mənbələrinin formalaşaıdırlmasında yüksək nəticələr əldə etməyə imkan yaradar. Sənaye parkları ölkənin sənaye siyasətinin strateji hədəflərinin və vəzifələrinin yerinə yetirilməsində xeyli funksiyaları reallaşdırmaq potensialına malikdir. Sənaye istehsalının diversifikasiyası innovasiya yönümlü olmalıdır və özündə fəaliyyətdə olan istehsalların müasirləşdirilməsi və elmtutumlu, yüksək texnoloji istehsalatların inkişafını cəmləşdirməlidir [1]. Sənaye parklarının fəaliyyəti hesabına innovasiya layihələrinin həyata keçirilməsi ölkəmizdə daha perspektivli və məhsuldar istehsal sahələrinin, müəssisələrin yaradılmasına əlavə stimullar verəcək və bununla yanaşı, iqtisadi artımın məhsuldar mənbələrini yaradacaqdır. Bunun üçün sənaye parklarının inkişaf etidirilməsi ilə bərabər, bu parklarda innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi proseslərinin idarəetmə mexanizmlərinin yaradılması və inkişaf etidirlməsi tədbirləri görülməli, sənaye parklarında iqtisadi artımın səmərəlilik səviyyəsi yüksəldilməlidir.

**Nəticə**

Qlobal iqtisadi çağırışların müasir aspektləri və inkişaf səmtləri əsas götürülməklə yaxın illərdə ölkəmizin sənaye parklarında iqtisadi-təşkilati mexanizmlərin səmərəliliyinin yüksəldilməsi problemlərinin daha optimal və dünya təcrübəsinə uyğun gələn yollarının axtarıb tapılması, bunlarla bağlı məhsuldar mexanizmlərin hazırlanması və tətbiq edilməsi lazım gələcəkdir. Bu tədbirlər sırasında bir sıra məqamlar daha çox fərqlənirlər:

- ölkəmizdə hazırda reallaşdırılmaqda olan strateji yol xəritələrində nəzərdə tutulan strateji iqtisadi inkişaf hədəflərinin sənaye parkları vasitəsilə yerinə yetirilməsinin səmərəliliyinin artırılması tədbirləri sürətləndirilməlidir;
- sənaye parklarında yüksək texnologiyaların tətbiqi hesabına ayrı-ayrı sənaye sahələrinin inkişafının sürətləndirilməsi, bu parklarda innovasiyaların işlənməsi, mənimsənilməsi və fəal tətbiqi təmin olunmalıdır;
- sənaye parklarında yüksək texnologiyalar əsaslı müəssisələr şəbəkəsininn yaradılması prosesləri sürətləndilirilməli, mövcud təşkilati-iqtisadi mexanizmlərin yüksəldilməsi problemlərinin daha səmərəli yollarının müəyyənləşdirilməsi istiqamətində kompleks və sistemli işlər aparılmalıdır;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ölkə iqtisadiyyatının strateji hədəflərinin reallaşdırlmasında sənaye parklarının çoxfunksiyalı və məhsuldar fəaliyyət mexanizmlərindən səmərəli istifadənin təmin olunması ilə əlaqədar olaraq uzunmüddətli çağırışlar nəzərə alınmaqla fəaliyyət strategiyası hazırlanmalı və reallaşdırılmalıdır.

**Ədəbiyyat**


1. Aslanzadə İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi problemləri. i.e.d. avtoreferat. Bakı, 2013, 43 s.
2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası. Bakı, 2013, 39 s.
3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, Bakı, 2014, 28 s.
4. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
6. Azərbaycanda iqtisadi artım 2% səviyyəsində proqnozlaşdırılır. 19 dekabr 2017. - http://bbn.az/az.
7. Azərbaycanın növbəti 3 il üzrə iqtisadi artım göstəriciləri açıqlandı - proqnoz 17 oktyabr 2018. http://finans.az.
8. Ekspert: "Azərbaycanda iqtisadi artım dünya səviyyəsinə görə yüksəkdir". http://finmarket.az.
9. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018, 376 s
10. Əliyev Ş.T. Azərbaycan sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, 368 s.
11. Fitch" Azərbaycanda iqtisadi artım tempinin sürətlənəcəyini proqnozlaşdırır. 29.12.2018. http://az.baku.ws.
12. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Bakı, 2017, 36 s.
13. İsmayılov A., Alıyev X. İnnovasiya əsaslı iqtisadi inkişaf və dövlət təşviqlərinin əhəmiyyəti // Journal of Qafqaz University, Vol.1, N.2, 2013, pp.231-240.
14. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.
15. Salıfova T. Sənaye zonalarının yaradılması üzrə qiymətləndirmə metodologiyası. "Çap ART" Nəşriyyatı, 2017.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Ильгар Тапдыг оглы Гюльмамедов***

***Проблемы повышения эффективности организационно-экономических механизмов в промышленных парках***

***Резюме***

*В статье исследованы проблемы повышения эффективности организационно-экономических механизмов в промышленных парках. С этой целью исследованы проблемы эффективности промышленных парков в современном периоде и связанные с ними вопросы. Обоснована важность обеспечения эффективности организационно-экономических механизмов, применяемых в промышленных парках. Раскрыта важность промышленных парков в диверсификации экономики и в создании конкурентоспособных промышленных предприятий. Дан потенциал и роль промышленных парков в реализации стратегических дорожных карт. Обозначена значимость продуктивности проводимых в промышленных парках мероприятий в обеспечении темпов роста национальной экономики. Указана необходимость рассмотрения стратегических подходов к разработке и внедрению действенных организационно-экономических механизмов в промышленных парках в роли обязательного условия. Рассматривается целесообразным расширение использования промышленных парков в процессах усиления промышленного потенциала страны. Исследован потенциал промышленных парков в реализации инновационных подходов к экономическому росту. Оценена важность комплексного и системного рассмотрения концептуальных вопросов относительно организации деятельности промышленных парков. Проведен анализ и дано влияние промышленных парков на рост ВВП страны. Дана значимость и роль созданных в промышленных парках предприятий в обеспечении динамики роста промышленной продукции. Раскрыты возможности промышленных парков в создании нового промышленного потенциала страны. Обоснована важность более широкого использования промышленных парков в ближайшей перспективе. Обращено внимание на расширение использования промышленных парков в инноватизации экономики. Подготовлены рекомендации и даны предложения относительно проблем повышения эффективности организационно-экономических аспектов формирования новых источников экономического роста в промышленных парках и пути их решения.*

***Ключевые слова:*** *промышленные парки, организационно-экономические механизмы, проблемы эффективности промышленных парков, усиление промышленного потенциала экономики, проблемы инновационного развития экономики, проблемы эффективности организационно-экономических механизмов.*



***Ilgar Tapdyq Gulmamedov***

***Problems of increase in efficiency of organizational and economic mechanisms in industrial parks***

***Resume***

*Increase in efficiency of organizational and economic mechanisms in industrial parks is investigated in the article. Problems of efficiency of industrial parks in the modern period and the related questions are studied for this purpose. Importance of ensuring efficiency of the organizational and economic mechanisms used in industrial parks is improved too. Importance of industrial parks in diversification of economy and in creation of the competitive industrial enterprises is disclosed then. Potential and a role of industrial parks in implementation of strategic road maps is given. The importance of efficiency of the events held in industrial parks in ensuring growth rates of national economy is analyzed. Need of*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*consideration of strategic approaches to development of effective organizational and economic mechanisms for industrial parks is specified. Expansion of use of industrial parks in processes of strengthening of industrial capacity of the country is considered. Capacity of industrial parks in realization of innovative approaches to economic growth is investigated. Importance of complex and system consideration of conceptual questions concerning the organization of activity of industrial parks is estimated. The analysis and influence of industrial parks on GDP growth are given too. The importance and a role of the enterprises created in industrial parks in ensuring dynamics of growth of industrial output is given. Possibilities of industrial parks in creation of new industrial capacity of the country are opened. Importance of wider use of industrial parks in the short term is improved. The attention to expansion of use of industrial parks in an economy innovatization is paid too. Recommendations and offers of increase in efficiency of organizational and economic aspects of formation of new sources of economic growth in industrial parks and a way of their decision are given in the end of the article.*

***Keywords**: industrial parks, organizational and economic mechanisms, problems of efficiency of industrial parks, strengthening of industrial potential of economy, problem of innovative development of economy, problem of efficiency of organizational and economic mechanisms.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:28.10.2019.***
***Çapa qəbul olunub:31.10.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*